# Gənc bəstəkarın əsəri Avstriyada festivalda səslənib

Gənc bəstəkar Ayaz Qəmbərli Avstriyanın Qrats şəhərində keçirilən "Musikprotokoll" müasir musiqi festivalında iştirak edib.

Bəstəkar festivalın təşkilat komitəsi tərəfindən sifariş olunmuş "Kiçik dəniz küçəsi" adlı iki saylı simli kvartetini təqdim edib. Əsərin festival çərçivəsində premyerası ukraynalı musiqiçilərdən ibarət "Danapris" simli kvarteti tərəfindən Giorgi Ligeti zalında gerçəkləşib.

Qeyd edək ki, "Musikprotokoll" festivalı 1968-ci ildən keçirilir. Bu konsert Prezident mükafatçısı olan Ayaz Qəmbərlinin Avstriyada ikinci uğurudur. Bəstəkar 2015-ci ildə Qrats şəhərində keçirilən "Frans Şubert və müasir dövrün musiqisi" müsabiqəsində "Elementlərin müqaviməti" (bir saylı piano trio) əsəri ilə birincilik əldə etmişdi.

**LALƏ**

Mədəniyyət.- 2021.- 27 oktyabr.- S.2.